# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

18 (70) 09 dekabr 2016-cı il

İctimai-siyasi qəzet


# Ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanışlıq zamanı İlham Əliyevin nitqi



"Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir. Uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir.

Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir.

Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən Hərbi Hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi - tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq.

Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları vətənpərvər vətəndaşlardır. Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır.

Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuzun maddi-texniki təminatı ilə bağlı əlavə tədbirlər görülür, vəsait ayrılıb, ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlar, texnika alınır və artıq bizim sərəncamımızdadır.

Ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir. Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bunu bir daha sübut etdi.

1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmişdir, 22 kənd işğalçılardan azad edilmişdir. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq.

Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü Ordumuz var. Biz Ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik! Sağ olun".

# İlham Əliyev Rusiyanın daxili işlər nazirini qəbul edib

Prezident İlham Əliyev Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.

Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları, Daxili İşlər nazirlikləri arasında uğurla inkişaf etdiyi bildirildi, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi qeyd olundu. Səfər zamanı Daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıqla bağlı məsələlərin müzakirə ediləcəyi vurğulandı, əlaqələrimizin gələcəkdə daha da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.

Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsev ölkələrimizin daxili işlər orqanları arasında əməkdaşlığa göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. Azərbaycan-Rusiya-İran prezidentlərinin birinci Bakı Sammitinə toxunan Vladimir Kolokoltsev Sammitdə dövlət başçıları tərəfindən imzalanan Bəyannamənin qarşılıqlı faydalı əməkdaşlıq və birgə fəaliyyətlə bağlı məsələlərin müzakirəsi zamanı əlaqələrin inkişafı üçün əlavə stimul yaratdığını dedi.

Azərbaycan-Rusiya-İran prezidentlərinin birinci Bakı Sammitinin əhəmiyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev bu formatın artıq formalaşdığını və bunun, həmçinin regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi işinə istiqamətləndiyini dedi.




**Respublika Veteranlar Təşkilatının VI Plenumu keçirilmişdir** Səh. 2-3

Böyük Vətən müharibəsi veteranları cəbhə bölgəsində olublar Səh. 4

Qaliblərin Balı Səh. 8

# Respublika Veteranlar Təşkilatının VI Plenumu keçirilmişdir

***22 noyabr 2016-cı ildə Respublika Veteranlar Təşkilatının inzibati binasında Respublika Veteranlar Təşkilatının VI Plenumu keçirilmişdir. Tədbir Azərbaycan Respublikası Dövlət himninin səslənməsi ilə başlanmışdır.***

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, e.o polkovnik Cəlil Xəlilov açmışdır. C.Xəlilov Respublika Veteranlar Təşkilatının 2016-cı il üzrə Tədbirlər Planına və Rəyasət Heyətinin qərarlarına uyğun olaraq Təşkilatın ilin əvvəlindən bu günədək olan fəaliyyəti ilə əlaqədar VI Plenumun keçirilməsi məqsədi ilə toplaşdıqlarını, tədbirdə, RVT-nin şəhər və rayon təşkilatlarının sədrləri, İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibələri, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, media nümayəndələrinin iştirak etdikrlərini bildirmişdir.

Çıxışlara başlamazdan əvvəl Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin, eləcə də Təşkilatın ötən plenumdan sonra dünyasını dəyişmiş Rəyasət Heyəti üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Plenumda Respublika Veteranlar Təşkilatının bütün şəhər və rayon təşkilatlarından, RVT Rəyasət Hüyətinin üzvləri, Mərkəzi aparatın işçiləri, İkinci Dünya, Qarabağ müharibələri və Silahlı Qüvvələr veteranları olmaqla seçilmiş 118 nəfər üzvdən 103 nəfəri Plenumda iştirak etmişdir.

Təşkilatın sədr müavini, eo polkovnik Cəlil Xəlilov Plenumun gündələyini elan etmiş, sonra birinci məsələnin müzakirəsinə başlanılmışdır.

E.o polkovnik Cəlil Xəlilov məruzə ilə çıxış edərək demişdir: “Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda Azərbaycan Respublikası Prezidentinin uğurla davam etdirdiyi veteranlara qayğı siyasətinin başlıca məqsədi vətənpərvər insanların xidmətlərinin qiymətləndirilməsi, cəmiyyətdəki mövqeyinin, sosial müdafiəsinin gücləndirilməsidir. İnamla deyə bilərik ki, bu zümrəyə aid edilən insanların, problemlərinin vaxtında həlli dövlətin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xətdir. Hər il İkinci Dünya Müharibəsi iştirakçılarına, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövürdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə verilən birdəfəlik maddi yardımın həcminin artırılması (2016-cı ildə bu məbləğ 1000 və 500 manat olmuşdur), eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində yalnız 2016-cı ildə imzalanan fərmanlar bu qayğının əyani sübutlarıdır.

Respublika Veteranlar Təşkilatı bu qayğı və diqqəti yüksək qiymətləndirir və ona layiqincə cavab vermək üçün fəaliyyətinin səmərəliliyini ildən-ilə artırmağa çalışır. Bunu fəaliyyət istiqamətləri üzrə hesabat dövründə həyata keçirilən tədbirlər də aydın göstərir. 2016-cı il üzrə Tədbirlər Planı və Rəyasət Heyətinin qərarlarına uyğun olaraq Respublika Veteranlar Təşkilatının 01 yanvar-22 noyabr 2016-cı il ərzindəki fəaliyyəti əsasən bir neçə istiqamət üzrə təşkil olunmuşdur. Bunlardan ən başlıcası İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 71 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həmin müharibənin iştirakçıları ilə görüşünün təşkili və 71 illiyə hazırlıq istiqamətində həyata keçirilən tədbirlərlə bağlı olmuşdur.



Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi məqsədi ilə İkinci Dünya müharibəsi veteranlarının iştirakı ilə Bakı şəhərinin rayonları da daxil olmaqla ölkənin bütün rayonlarında yerləşən orta məktəblərdə, lisey, universitet və hərbi yönümlü ali məktəblərdə, o cümlədən Naxçıvanski adına Hərbi lisey, Kaspi liseyi, Bakı Slavyan Universiteti, Dövlət Uşaq Filarmoniyası, Azərbaycan Xalça Muzeyi, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası, Müdafiə Nazirliyinin Hərbi Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyası və digər təhsil ocaqlarında, həmçinin idarə-müəssisələrdə tədbirlər keçirilmişdir.

Təşkilatın inzibati binasında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin bir qrup nümayəndəsi ilə ölkə veteranlarının geniş tərkibdə görüşü, “Multikulturalizmin Azərbaycan nümunəsi: Multikulturalizmin inkişafı və beynəlxalq platformaya çevrilməsi başlıca məqsəddir” mövzusunda keçirilən Elmi - praktiki Konfrans keçirilmişdir. Tədbirlərdə rəsmi şəxslər, elmi ictimaiyyətin nümayəndələri, veteranlar, ziyalılar və KİV təmsilçiləri iştirak etmişlər.

08 aprel 2016-cı il tarixində Respublika Veteranlar Təşkilatında Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində ermənilərin təxribatının qarşısını alınması ilə əlaqədar “Biz Azərbaycan əsgərinə, Ali Baş Komandanımıza və parlaq qələbəmizə inanırıq” mövzusunda tədbir keçirilmişdir.

6 may 2016-cı ildə AR Müdafiə Nazirinin müavini general-leytenant Kərim Vəliyevlə İkinci Dünya müharibəsi veteranlarının görüşü təşkil olunmuşdur.

9 may 2016-cı ildə faşizmi üzərində Qələbənin 71 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İkinci Dünya müharibəsi iştirakçıları ilə görüşü baş tutmuş, dövlət başçısının adından veteranlara böyük ziyafət verilmişdir. Həmçinin Qələbənin 71 illiyi münasibətilə icra hakimiyyətlərində keçirilən tədbirlərdə veteranların iştirakı təşkil edilmişdir.

Səfərbərlik və hərbi xidmətə çağrışa üzrə Dövlət Xidmətinin Respublika üzrə təşkil etdiyi “Vətənin Müdafiəsinə Hazıram” adlı silsilə tədbirlər çərçivəsində Daşkəsən, Qazax, Abşeron, Qaradağ, Suraxanı, Yasamal rayonlarında keçirilən tədbirlərdə iştirak edilmişdir.



Mayın 19-20-də Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev və Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov cəbhə bölgəsinə səfər edərək N saylı hərbi hissənin şəxsi heyəti ilə görüşüblər. Görüşdə veteranlarımızın yaşlarının ixtiyar çağlarında Qarabağ uğrunda döyüşlərə atılmağa hazır olduqları, RVT-nin gənclərin vətənpərvərlik tərbiyəsində, onların orduya hazırlanmasında bundan sonra da səylərini əsirgəməyəcəyi vurğulanmışdır. Eləcə də, Təşkilat nümayəndələri və veteranların Bərdə, Tərtər, Qazax, Horadiz istiqamətində döyüş rayonlarında hərbi hissələrin şəxsi hüyəti ilə görüşləri təşkil olunmuşdur.

May ayının 26-da RVT-nin inzibati binasında Bakı Slavyan Universitetinin tələbələrinin iştirakı ilə Respublika günü münasibətilə “Gənclərdə milli ruhun gücləndirilməsi” mövzusunda ədəbi-bədii gecə keçirilib.

02 iyun 2016-cı il tarixdə Təşkilatın inzibati binasında ermənilərin II Dünya Müharibəsində alman faşizminə xidmət etmiş, ermənilərdən ibarət qisasçı legionun yaradıcıları general Dronun və Qaregen Njdenin MDB məkanında genişmiqyaslı təbliğatına, onların qəhrəman kimi təqdim edilməsinə, barələrində filmlərin çəkilməsinə, Yerevanda abidələrinin qoyulmasına etiraz olaraq tədbir keçirilmiş və MDB dövlətlərinin başçılarına, parlamentlərinə, beynəlxalq təşkilatlara, veteran təşkilatlarına müraciət qəbul edilmişdir. AR Konstitusiyasına dəyişikliklərlə əlaqədar referendumla bağlı tədbirlərdə, eləcə də, referendumla əlaqədar “Vətəndaş cəmiyyəti” təşviqat qrupunda fəal iştirak edilmişdir.

“Bakinskiy raboçiy” və “Kaspi” qəzetlərində yubiley münasibəti ilə keçirilən tədbirlərdə RVT-nin nümayəndələri iştirak etmişlər.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü, Respublika Veteranlar Təşkilatının ilk sədri, general-mayor Mustafa Nəsirovun 95 illik yubileyi ilə bağlı, İkinci Dünya müharibəsində Moldova Respublikasında həlak olmuş və itkin düşmüş sayılan azərbaycanlı döyüşçülərdən 206 nəfərinin taleyinin aydınlaşması münasibətilə tədbirlər keçirilmişdir.

Veteranların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, möhtərəm prezidentin Təşkilata ayırdığı vəsaitin xeyli hissəsi yataq xəstəsi olan İkinci Dünya Müharibəsi veteranlarına çatdırılması üçün lazımı sənədləşdirmə işləri aparılmış, artıq Bakı şəhərinin rayonları üzrə ayrılmış müvafiq maddi yardımlar əməkdaşlarımızın və yerli icra hakimiyyəti nümayəndələrinin iştirakı ilə RVT Rəyasət Heyəti adından veteranlara çatdırılmışdır. Digər rayonlar üzrə bu işlər ilin sonunadək yekunlaşacaqdır. Ölkənin 4 regionunda və Bakı şəhərində şəhid ailələrinə maddi yardımlar da eyni qaydada çatdırılmışdır.

Şabran rayonunda yaşayan Böyük Vətən müharibəsi veteranı Əhmədov Məhəmməd Seyfəs oğlunun 98 illiyi, Şamaxı rayonunda yaşayan Ağayev Hacı Firudin oğlunun 90 illiyi, Sabunçu rayonunda yaşayan Məmmədov Əliş Muxtar oğlunun 80 illiyi, Binəqədi rayon veteranlar təşkilatının sədri e.o polkovnik Telman Hətəmovun 70 illik yubileyləri və digər tədbirlər keçirilmişdir. Biz bu ənənəni, veteranlarımıza mənəvi diqqəti növbəti illərdə də davam etdirmək əzmindəyik.

Təşkilatın nümayəndələri “Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri” İctimai Birliyinin 15 illik, “Çernobl əlilləri ictimai birliyi”nin 30 illik yubiley mərasimilərndə, xalq şairi Zəlimxan Yaqubun xatirəsinə həsr olunmuş tədbirdə, Qarabağ müharibəsi veteranı Vəli Məmmədovun 85 illik yubiley gecəsində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilmiş dövlət tədbirində və s. tədbirlərdə iştirak və çıxış etmişlər.

Respublika Veteranları Təşkilatının beynəlxalq və ictimaiyyətlə əlaqələrinin daha da gücləndirilməsi məqsədilə bir sıra işlər görülmüş, Türkiyə, Sloveniya, MDB dövlətlərinin veteran təşkilatları ilə əməkdaşlıq əlaqələri daha da genişləndirilmişdir.

Qələbənin 71 illiyinə həsr olunmuş «Победа и память» kitabının nəşr edilərək 9 may Qələbə günündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təqdim olunmuşdur.

Sentyabr ayında Rusiya Federasiyasının Silahlı Qüvvələri Veteranları Təşkilatının sədri, ordu generalı Viktor Yermakov RVT-də olmuşdur. RVT-nin sədri D.Rzayev Azərbaycanda veteranlara göstərilən diqqət və qayğıdan, onların sosial problemlərinin həll edilməsindən qonağı ətraflı məlumatlandırmışdır. Ordu generalı Viktor Yermakov RVT-yə yaradılan şəraitdən, veteranlara göstərilən qayğıdan bütün MDB ölkələrinin nümunə götürməli olduğunu bildirmişdir.26-30 oktyabr 2016-cı il tarixlərində Türkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə nümayəndə heyətinin Bakıya səfəri təşkil edilmişdir. Qonaqların Təşkilatın rəhbərliyi, Müdafiə Nazirliyinin və Türkiyənin ölkəmizdəki səfirliyinin rəsmləri ilə görüşləri təşkil olunmuş, qonaqlarla Müdafiə Nazirliyinin H.Əliyev adına Hərbi Məktəbində görüş keçirilmiş, onlar Bakı şəhərinin tarixi yerləri və ölkənin muzeyləri ilə tanış edilmişlər.

Beynəlxalq əlaqələrin, ümumən bu fəaliyyət istiqamətinin növbəti ildə daha da gücləndirilməsi üçün tədbirlər planı hazırlanmış və xarici ölkələrin müvafiq təşkilatlarına təkliflər göndərilmişdir.

Hesabat dövründə Təşkilatın orqanı olan “Azərbaycan Veteranı” qəzetinin 18 sayı dərc olunmuş, qəzetə yerlərdən müəllif məqalələrinin təşkili və 2016-cı ilin II yarımilliyində abunə yazılışının təşkili sahəsində iş aparılmışdır. Artıq 6 aydır ki, Təşkilatın “veteran. az” saytı yaradılmış və fəaliyyət göstərir. RVT-nin tədbirləri haqqında ölkə KİV-lərində, dövlət və müstəqil informasiya agentliklərində geniş məlumatlar verilmiş, “Azərbaycan”, “Respublika”, “Ədalət”, “Xalq qəzeti”, “İki sahil” və s. qəzetlərdə, Azərbaycan TV, İctimai TV, Lider TV, ATV-də yayımlanmışdır. Eləcə də, Respublika Veteranlar Təşkilatının əməkdaşları “Azərbaycan”, “Respublika”, “Ədalət” və s. qəzetlərdə məqalələrlə çıxış etmiş, müxtəlif televiziyaların hazırladığı verilişlərdə iştirak etmişlər.



Hesabat müddətində fəaliyyətin səmərəli qurulmasında Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında veteranlara göstərilən qayğı və diqqətin mühüm rol oynadığını bir daha xüsusi vurğulamaq istərdim. Plenum iştirakçıları və veteranlar adından yaradılmış şəraitə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı çatdırır, Respublika Veteranlar Təşkilatının həmişə dövlətin, xalqın yanında olduğunu, möhtərəm Prezidenti dəstəklədiyini bildirirk”.

Təşkilatın Nəzarət-Təftiş Komissiyasının sədri Cahangir Nəsirov çıxışında Təşkilatın gördüyü işləri yüksək qiymətləndirmişdir:“Cəsarətlə demək olar ki, hesabat dövründə Respublika Veteranlar Təşkilatı və onun Rəyasət Heyəti həqiqətən diqqətəlayiq və səmərəli fəaliyyət göstərmişdir. Xüsusilə 28 yanvar 2014-cü il tarixli Plenumda general Dadaş Rzayev Respublika Veteranlar Təşkilatına sədr, polkovnik Cəlil Xəlilov sədrin müavini seçildikdən sonra Respublika Veteranlar Təşkilatının nüfuzu artmış, Sevindirici haldır ki, möhtərəm Prezidentimiz İlham Əliyevin veteranlara hərtərəfli qayğısı və doğma münasibəti ölkənin bütün şəhər və rayonlarında veteranlarla münasibət köklü surətdə dəyişmiş, veteranlara qayğı və diqqət daha da artırmışdır. Veteranlar Təşkilatı geniş inkişaf yoluna çıxmış, maddi-texniki bazası möhkəmlənmişdir.

Hesabat dövründə Nəzarət-Təftiş Komissiyası Respublika Veteranları haqqında Qanuna və Təşkilatın Nizamnaməsinə uyğun olaraq diqqət Respublika Veteranlar Təşkilatı Rəyasət Heyətinin iş planının icra edilməsinə, icranın keyfiyyətinə, qəbul edilmiş qərarların yerinə yetirilməsinə, ərizə, şikayət və müraciətlərin qeydə alınmasına və yoxlanılmasına, maliyyə və əmlak vəsaitlərindən səmərəli istifadə edilməsinə yönəltmişdir.

2016-cı ildə Azərbaycan Respublikası Veteranlar Təşkilatının gördüyü işlərin həcmi daha da artdığından təşkilatımıza dövlət qayğısı da artmış, onun maliyyə vəziyyəti yaxşılaşdırılmışdır.

2016-ci ildə Azərbaycan Respublikası Veteranlar Təşkilatı üçün büdcədə nəzərdə tutulmuş vəsaitdən plana uyğun qaydada istifadə olunmuşdur. Yəni mərkəzi aparatın və təşkilatın inzibati binasının saxlanması,təsərrüfat əşyalarının alınması, ezamiyyə xərclərinin vaxtında ödənilməsinə və s. məsələlərə Komissiya xüsusi diqqət yetirmişdir. Eyni zamanda, cənab Prezidentimizin Veteran Təşkilatına ayırdığı vəsaitin əsas hissəsinin təyinatına uyğun xərclənməsinə və veteran ailələrinə, xəstə veteranlara Rəyasət Heyətinin qərarı əsasında maddi yardımlar göstərilməsinə (bu proses davam edir) ciddi nəzarət edilmişdir. Maliyyə orqanları tərəfindən aparılan yoxlamalarda təşkilatımızda maliyyə intizamının pozulması kimi hallar qeyd olunmamışdır. Belə ki, Respublika Veteran Təşkilatına ayrılan pul vəsaiti öz təyinatına düzgün xərclənmişdir və xərclənilir.

Çox təəssüf ki, hesabat dövründə Nəzarət-Təftiş Komissiyası bütün rayonlarımızda yoxlamalar keçirə bilməmişdir. Buna baxmayaraq, iş planı üzrə Respublikamızın Qax, Mingəçevir, Şəmkir və Bakının Nizami rayonlarında keçirilmiş yoxlamaların nəticələri müsbət olmuşdur. Mingəçevir şəhər Veteranlar Təşkilatının hərbi vətənpərvərlik və siyasi-kütləvi iş sahəsindəki fəaliyyəti başqa rayonların Veteranlar Təşkilatları üçün də nümunə ola bilər.

Nəzarət-Təftiş Komissiyasının sədri olaraq Plenum iştirakçılarının nəzərinə çatdırıram ki, bəzi internet saytlarındakı qalmaqallı yazılar absurd,cəfəngiyatdır və nəinki heç bir hüquqi, hətta faktoloji əsası yoxdur. Veteranlar Təşkilatında iş normal şəraitdə aparılır və burada işləyən insanlar öz işinin peşəkarı olmaqla, dövlətə və ölkə rəhbərinin yeritdiyi siyasətə sadiqdirlər.”

C.Nəsirov Respublika Veteranlar Təşkilatının illik hesabatı qənaətbəxş-kafi hesab edilməsini təklif etmişdir.

Sonra Respublika Veteranlar Təşkilatının illik fəaliyyəti ilə bağlı məsələlərlə əlaqədar məruzə ətrafında çıxışlara başlanılmışdır.

İkinci Dünya müharibəsi veteranı Fatma xanım Səttarova, Suraxanı rayon Veteranlar Təşkilatının sədri Eldar Rüstəmov, Şəki rayon Veteranlar Təşkilatının sədri Mustafa Əhmədov, Şamaxı rayon Veteranlar Təşkilatının sədri Ağarza Bayramov, millət vəkili Xanhüseyn Kazımlı, Prezident Adminstrasiyasının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rasim Mirzəyev çıxış etmişlər. Çıxış edənlərin hamısı Respublika Veteranlar Təşkilatının illik fəaliyyətini qənaətbəxş qiymətləndirmişlər.



Sonra gündəliyin 2-ci məsələsi, RVT-nin 2017-ci ilə aid fəaliyyət planı barədə Təşkilatın sədr müavini, e.o polkovnik Cəlil Xəlilov məlumat çatdırmış, onun təsdiq olunması ilə bağlı təkliflər səsləndirilmişdir. Plan bəzi təkliflər nəzərə alınmaqla qəbul olunmuşdur.

Plenum işini başa çatdırmışdır.

# Böyük Vətən müharibəsi veteranları cəbhə bölgəsində olublar

***Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsində Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri yaxından iştirak edirlər.***

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun rəhbərliyi ilə bir qrup Böyük Vətən müharibəsi veteranı cəbhə bölgələrinə səfər edərək şəxsi heyətlə görüşüb, onların xidmət şəraiti ilə tanış olub, problem və qayğıları ilə maraqlanıb, Vətən müdafiəçilərinə ağsaqqal öyüdnəsihəti verib və işğal edilmiş torpaqlarımızın tezliklə düşmən tapdağından azad edilməsi naminə onlara uğurlar arzulayıb.

Veteranlar hərbi hissə komandanlığı tərəfindən səmimiyyətlə qarşılanıb. Onlara hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu, şəhid və qəhrəmanları haqqında ətraflı məlumat verilib.




Xalqımızın ümummilli lideri, müasir, mütəşəkkil ordumuzun baş memarı Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla yad edilib.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbaninin müşayiəti ilə veteranlar Beyləqan rayonunun Birinci Şahsevən kəndinə gedərək Sovet İttifaqı Qəhrəmanı Qəray Əsədovun ev muzeyini ziyarət edib, 90 yaşlı bacısı ilə görüşüb və onun qəhrəman qardaşı haqqında xatirələrini dinləyiblər.



Döyüşçülərlə ilk görüş aprel döyüşləri zamanı düşmən tapdağından azad edilən Lələtəpə zirvəsində reallaşıb.

Zabit Rəşad Piriyev dövlətimizin və ordumuzun gücünü, xalqımızın həmrəyliyini, vətənpərvərliyini nümayiş etdirən aprel döyüşləri və onun qəhrəmanları haqqında danışıb. Şəhidlərin xatirəsi yad edilib. Bir neçə gün əvvəl irimiqyaslı təlimlər ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu zirvəyə gəlişi, döyüşdə fərqlənən bir qrup hərbi qulluqçunu mükafatlandırması, döyüşçüləri mübarizəyə səsləyən qətiyyətli çıxışı və düşmənə tutarlı mesajları bir daha xatırlanıb.

Döyüşlərdə göstərdiyi şəxsi şücaətə görə hələ aprel ayında Prezidentin sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı, bir neçə gün öncə isə Prezidentin şəxsi hədiyyəsi ilə mükafatlandırılan əsgər İmran Remixanov hər an Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bildirib. Qeyd edib ki, yaşları 90-ı çoxdan ötmüş veteranları azad etdikləri strateji yüksəkliklərdə görməkdən böyük qürur duyur və aprel döyüşlərindəki Qələbəni hər an təzələməyə qadirdirlər.

Veteranlar təşkilatının sədr müavini polkovnik C.Xəlilov hər bir Azərbaycan vətəndaşının, eləcə də hər bir veteranın ordumuzun uğur və nailiyyətlərindən fərəhləndiyini, Azərbaycan əsgərinə həmişə arxa-dayaq olduqlarını diqqətə çatdırıb. Müdafiə Nazirliyinin rəhbərliyinə veteranlara göstərilən diqqət və qayğıya, bu kimi tədbirlərin keçirilməsi üçün yaradılan şəraitə görə respublika veteranlar ordusunun minnətdarlığını bildirib.



Xalqımız üçün, o cümlədən Azərbaycan Ordusunun şəxsi heyəti üçün həmişə əziz və dəyərli olan insanların, bəşər üçün ən böyük fəlakət sayılan faşizm taunu ilə üz-üzə dayanıb mübarizə apararaq ölümün caynağından qurtulmuş veteranların keçdikləri şanlı döyüş yolundan söhbət açılıb.




97 yaşlı müharibə veteranı Bəkir Məmmədov, Berlinədək döyüş yolu keçmiş bombardmançı təyyarəçi Daməd Vəliyev çıxış edərək ön səngərdə Azərbaycan əsgəri ilə bir yerdə olduqlarını, Lələtəpə zirvəsinə qalxdıqlarını, həyatlarının ən xoş anı hesab edib və tezliklə Şuşada, Xankəndidə, Laçında, Kəlbəcərdə və digər yolumuzu gözləyən yurd yerlərimizdə qalib Azərbaycan əsgəri ilə görüşəcəklərinə əminliklərini bildiriblər.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis etdiyi yubiley medalları təqdim edilib.

Çay süfrəsi arxasında səmimi söhbət həm əsgərlərdə, həm də qonaqlarda xoş duyğular oyadıb. Xatirələr veteranları gənclik illərinə qaytarıb, əsgərlərimiz isə babaların qəhrəmanlıq ənənələrini şərəflə davam etdirəcəklərinə söz veriblər.



Cəbrayıl, Füzuli, Xocavənd, Ağcabədi, Beyləqan rayonları istiqamətində Vətən, xalq və dövlət qarşısında əsgəri borclarını layiqincə yerinə yetirən Vətən müdafiəçiləri ilə biri-birindən maraqlı görüşlər keçirilib.

Veteranlar əsgərlərlə bir yerdə nahar edib, eyni yataqxanada gecələyib, onların təlimlərini izləyib, silah və hərbi texnikalarla tanış olub və cəbhə bölgəsindən xoş təəssüratlarla ayrılıblar.

**MÜDAFİƏ NAZİRLİYİ**

# Qələbə bayrağımız işğal altındakı torpaqlarımızda dalğalanacaqdır

17 və 25 noyabr 2016-cı il tarixlərində Respublika Veteranlar Təşkilatının və Respublika Hərbi Prokurorluğunun birgə tədbirlər planına uyğun olaraq Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin Bərdə və Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissələrində gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, eləcə də yaşlı nəslin hərbi bilik və təcrübəsinin gənclərə mənimsədilməsi mövzusunda tədbirlər keçirilmişdir. Tədbirlərdə RVT-nin hərbi vətənpərvərlik şöbəsinin müdiri, ehtiyatda olan polkovnik A.Haqverdiyev, RVT-nin şöbə müdiri T.Babayev, Təşkilatın daimi komisiyasının sədri Zahiddin Abbasov, baş mütəxəssis ehtiyatda olan polkovnik-leytenant A.Babaşov və Respublika Hərbi Prokurorluğunun zona prokurorunun müavini, ədliyyə polkovniki Tahir Quliyev, Fizuli Rayon Hərbi Prokuroru polkovnik Natiq Həsənov və müavini polkovnik-leytenant Elnur Kərimov şəxsi heyət qarşısında çıxış etmişlər.





Keçirilən tədbirlərin əsas məqsədi əsgər və zabitlər arasında hərbi vətənpərvərlik tərbiyəsinin və hərbi intizamın yüksəldilməsi idi. Çıxışlarda erməni işğalçılarına qarşı Azərbaycan Ordusunun uğurlu aprel döyüşlərindən ətraflı danışılmış və gənc hərbçilərə xidməti işlə bağlı dəyərli tövsiyyələr verilmiş, əsgər və zabitləri maraqlandıran suallar cavablandırılmışdır. Tədbirlərin yüksək səviyyədə keçirildiyinə görə hərbi hissə komandirləri şəxsi heyət adından Respublika Veteranlar Təşkilatının və Respublika Hərbi Prokrorluğunun nümayəndələrinə minnətdarlıqlarını bildirmiş, belə görüşlərin xüsusilə gənclərin ruh yüksəkliyini artırdığını vurğulamışlar. Qətiyyətlə bildirilmişdir ki, düşmənlə üzbəüz səngərlərdə dayanan hərbi hissələrimizin şəxsi heyəti öz məsuliyyətini yaxşı başa düşür, verilən tapşırıqları həmişə layiqincə yerinə yetirməyə, veteranların dəyərli məsləhətlərinə əməl etməyə hazırdır. Gənc hərbçilər öz xidmətlərini rəşadətlə, mərdliklə yerinə yetirəcəklərinə, işğal altındakı torpaqlarımızda qələbə bayağımızı dalğalandıracaqlarına əminlik ifadə etmişlər.

Daha sonra Bərdə hərbi prokurorluğunda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü ilə əlaqədar geniş müşavirə keçirilmişdir. Müşavirədə Respublika Hərbi prokurorunun nümayəndəsi, Qarabağ və Tər-tər hərbi prokurorluğunun zona prokurorları və onların müavinləri, əməkdaşlar və Respublika Veteranlar Təşkilatının əməkdaşları iştirak etmişlər.

Müşavirədə RVT-nin şöbə müdiri e.o. polkovnik A.Haqverdiyev və digər müşavirə iştirakçıları öz çıxışlarında Azərbaycanın dövlətçilik ənənəsindən, müstəqilliyin bərpasından sonra əldə olunan uğurlardan, Ali Baş Komandanımızın rəhbərliyi altında ölkədə inamla davam etdirilən ordu quruculuğundan, dövlətin veteranlara qayğısından, 2-5 aprel döyüşlərində Azərbaycan əsgərinin qəhrəmanlığından, şəxsi heyətin ruh yüksəkliyindən ətraflı danışmış, ordumuzun qəti qələbəsinə inandıqlarını xüsusi qeyd etmişlər. Tədbirlərin sonunda RVT Rəyasət Heyəti adından xidməti borcunu layiqincə yerinə yetirən hərbçilərə və hərbi prokurorluq işçilərindən bir neçəsinə RVT-nin Fəxri Fərmanları təqdim edilmişdir.

## SOVET İTTİFAQI QƏHRƏMANI HƏZİ ASLANOVUN BÜSTÜNÜN AÇILIŞI

25 noyabr 2016-cı il tarixində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşları - Gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri Adil Haqverdiyev, baş mütəxəssis Nəbi Hacıyev, Beynəlxalq əlaqələr şöbəsinin baş mütəxəssisi Aleksandr Qritçenko, Bakı şəhəri Yasamal rayonunda yerləşən iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adını daşıyan 175 saylı tam orta məktəbdə tədbirdə olduq. Tədbir Həzi Aslanovun büstünün və guşənin açılışına həsr olunmuşdu. Tədbirdə 175 saylı məktəbin direktoru Qələndər Qələndərov, məktəbin tərbiyə işləri üzrə direktor müavini Həcər Məmmədova, məktəbin hərbi müəllimi eo polkovnik-leytinant Fizuli Əzizov, Mürsəl Qurbanov Bakı şəhəri Təhsil İdarəsinin əməkdaşı, Aprel döyüşlərinin veteranı e.o baş leytinant Kamil Musəvi, e.o polkovnik-leytinant Qarabağ veteranı Novruz İsmiyev, Böyük Vətən Müharibəsi veteranları: Damət Nəbiyev, Bəkir Məmmədov, müəllimlər, şagirdlər iştirak etdilər. Tədbirin sonunda xatirə şəkili çəkdirildi.



**NƏBİ HACIYEV**
**RVT -nın Hİ sədri**

## 83 SAYLI LİSEYDE ORDU QURUCULUĞUNA HƏSR OLUNMUŞ TƏDBİR



Gənclərdə hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi məqsədi ilə biz - Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri Adil Haqverdiyev, baş mütəxəssis Nəbi Hacıyev, Binəqədi rayon VT-nın sədri Telman Hətəmov, Binəqədi Rayon İcra Hakimiyyətinin şöbə müdirinin müavini Rauf Həsənov Binəqədi rayonunda Yerləşən 83 saylı liseydə tədbirdə iştirak etdik. Tədbir ordu quruculuğuna həsr olunmuşdu. Tədbiri liseyin direktoru Mahmudov Nəbi açıq elan etdi. O, müəllimləri və şagirdləri salamlayaraq qonaqları onlara təqdim etdikdən sonra çıxış üçün sözü liseyin tarix müəllimi Afaq Vəliyevaya söz verdi. Afaq xanım ordu quruculuğundan ətraflı söhbət etdi. Növbəti çıxış üçün söz Adil Haqverdiyevə verildi. E.o polkovnik Adil Haqverdiyev məktəblilərə ordumuzun dünənindən və bu günündən ətraflı danşdı. Müəllimlərin və məktəblilərin suallarına cavab verdi. Rauf Həsənov, Telman Hətəmov, Nəbi Hacıyev və başqaları maraqlı çıxışlar etdilər. Tədbirin sonunda xatirə şəkilləri çəkdirildi.

**ADİL HAQVERDİYEV**
**Gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri**

# MİLLİ QƏHRƏMANLARIMIZI TANIDAQ VƏ YAŞADAQ!

30 noyabr 2016-cı il tarixində, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının akt zalında “Milli Qəhrəmanlarımızı tanıdaq və yaşadaq!” hərbi vətənpərvərlik mövzusunda tədbir keçirildi.

Tədbiri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov giriş sözü ilə açaraq ilk öncə tədbir iştirakçılarından Azərbaycan Respublikasının Dövlət müstəqilliyi, torpaqlarının bütövlüyü uğrunda şəhid olmuşların xatirəsini bir dəqiqəlik sükutla yad edilməsini xahiş etdi.

Cəlil Xəlilov tədbir haqqında məlumat verərək bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi yolunda hərbi-siyasi və hərbi-texniki sahədə beynəlxalq əlaqələrin, əməkdaşlığın mühüm əhəmiyyəti və hərbi sahədə böyük uğurlar əldə edilməsi xalqımız tərəfindən müsbət qarşılanır.

Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin hazırladığı silah-sursatlar bu gün dünyanın qabaqcıl ölkələrində istehsal edilən eynitəyinatlı məhsullardan nəinki geri qalmır, hətta bəzi texniki-taktiki göstəricilərini görə onlardan üstündür. Qarabağda cəbhə xəttində erməni təxribatlarının qarşısının alınmasında, ölkənin ərazi bütövlüyünün, dinc əhalinin təhlükəsizliyinin qorunmasında qəhrəman Azərbaycan oğulları ilə yanaşı, bu silahlar da öz sözünü dedi. Həmin silahlar və hərbi sənaye sahəsi mühəndislərimizin əməyinin nəticəsi olan hərbi texnikamız döyüş sınağından uğurla çıxaraq, düşmənə sarsıdıcı zərbə vurulmasına imkan verdi.

Milli Qəhrəmanlarımızı tanıtmaq və yaşatmaq məqsədi ilə, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının, Azərbaycan Respublikası "Beynəlmiləlçi Əlil Döyüşçülər" Fondunun, "Qürur Şəhid Ailələri Xeyriyyə" birliyinin, "20 Yanvar" birliyinin, "Xocalı Soyqırımını Tanıtma" birliyinin və "Sosial Rifah və Tədqiqatları" birliyinin təşəbbüsü ilə 2 fevral 2016-cı il tarixində, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinə Azərbaycanın Milli Qəhrəmanı Səfiyar Behbudovun adının əbədlədirilməsü üçün onun adına silah adı verilməsinə görə müraciyət edilmişdir.

Müraciətimiz Müdafiə Sənayesi Nazirliyində müsbət qarşılanaraq Azərbaycan Respublikasının, ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində xususi igidlik və şücaət göstərdiyinə görə (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Səfiyar Abuzər oğlu Behbudovun adının əbədləşdirməsi üçün Müdafiə Sənayesi Nazirliyin mühəndisləri tərəfindən hazırlanan və istesal olunan 120 mm-lik minaatanın “SƏFİYAR minaatanı” adlandırılması qərara alınnmışdır.



Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin və Azərbaycan Müdafiə Nazirliyinin xüsusilə ölkə gəncləri arasında hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi istiqamətindəki fəaliyyəti də təqdirəlayiqdir. Belə ki, Müdafiə Sənayesi Nazirliyi istehsal etdiyi silahlara, hərbi texnikaya torpaqlarımızın düşmən işğalından azad olunmasında xususi igidlik və şücaət göstərdiyinə görə Azərbaycanın ən yüksək fəxri adına, Milli Qəhrəmanı adına layiq görülmüş oğullarımızın xatirəsini əbədiləşdirir. Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimovun və Səfiyar Behbudovun adlarını daşıyan və atəşləri onlar kimi düşmənə ölümcül zərbələr vuran"MÜBARİZ 12.7"mm çaplısnayper tüfəngi və 120 mm-lik “SƏFİYAR minaatanı” bu sahədəki fəaliyyətin bariz nümunələridir.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi Rasim Mirzəyev çıxış edərək qeyd etdi ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyin və Azərbaycan Müdafiə Nazirliklərinin birgə təşkilatçılığı ilə sentyabrın 27-də dünyanın 44 ölkəsindən 250-yə yaxın şirkətin rəsmi heyətin, beynəlxalq ölkələrin müdafiə nazirliklərinin nümayəndələrinin iştirakı ilə, Bakı Ekspo Mərkəzində keşirilmiş “ADEX-2016” ikinci Beynəlxalq müdafiə sərgisinidə, Qəhramanlarımızın adına verilmiş "MÜBARİZ 12.7" mm çaplı snayper tüfəngi və “SƏFİYAR minaatanı” sərgi iştirakçılarının böyük marağına səbəb oldu.

Azərbaycan Respublikası "Beynəlmiləlçi Əlil Döyüşçülər" Fondunun Prezidenti Sərraf Orucov çıxış edərək, bildirdi ki, «İstiqlal» snayper tüfəngləri ailəsindən olan 12.7 mm çaplı ikinci snayper tüfəngi Mübariz İbrahimovun şərəfinə "MÜBARİZ 12.7" mm çaplı snayper tüfəngi adlandırılması orduda xidmət edən əsgərlərimizin döyüş ruhunu qaldırmış və ictimayət tərəfindən müsbət qarşılanmışdı.

"MÜBARİZ 12.7" mm çaplı snayper tüfəngi hazırda dünyada ən yaxşı silahlar sırasında xususi yer alaraq atış məsafəsinə və vuruş gücünə görə xarici analoqlarını üstələyir. Bu snaper tüfəngi hazırda Azərbaycan Silahlı Qüvvələri tərəfindən cəbhə xəttində Mübariz İbrahimovun şərəfinə «MÜBARİZ» snaper tüfəngi adlandırdığı üçün, əskərlərimiz tərəfindən sevilərək tətbiq edilir.

Digər Milli qəhrəmanımızın adını daşıyan 120 mm-lik “SƏFİYAR minaatanı”nın, Rusiya istehsalı olan 120 mm-lik minaatandan üstünlüyü ondan ibarətdir ki, qəhramanımızın adını daşıyan minaatanımız atəş yayımını müəyyən olunmuş hədəfə daha düzgün və dəqiq nişan alır. 120 mm-lik “SƏFİYAR minaatanı” Azərbaycan və Türkiyə Silahlı Qüvvələrində böyük marağa səbəb olmuşdur. Sərraf Orucov çıxışının sonunda bildirdi ki, "MÜBARİZ 12.7" mm çaplı snayper tüfəngi Qarabağda gizlin düşmən nişangahlarını zərərləşdirəcək, “SƏFİYAR minaatanı” isə Qarabağda Səfiyarın ayağı dəyən yerlərə raket zərbələri ataraq onun ruhunu şad edəcəkdir.

"Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin sədri ehtiyatda olan polkovnik Mehti Mehtiyev çıxış edərək bildirdi ki, bu gün yadelli işğalçılar və onların havadarları bilməlidirlər ki, Azərbaycan daha 1988-1993-cü illərdəki Azərbaycan deyil. Onun iqtisadiyyatı, hərbi potensialı və qüdrəti durmadan günü-gündən güclənməkdədir. Artıq Azərbaycan Ordusu 1991-1993-cü illərki ordu deyil. Azərbaycan Respublikasnın Prezidenti, Azərbaycan Silahlı Qüvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqəti sayəsində, Silahlı Qüvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, əsgər və zabit heyətinin mənəvi-psixoloji durumunun yaxşılaşdrılması, döyüş əhval-ruhiyəsinin yüksəldilməsi sahəsində ciddi işlər görülüb. İndi Azərbaycan Silahlı Qüvələri NATO standartlarına uyğun formalaşıb. Azərbaycan Silahlı Qüvələri Qafqazın ən qüdrətli ordusu kimi formalaşmışdır.




Tədbirdə iştirak edən, “Ehtiyatda olan Zabitlər Konfederasiyasının” birliyinin sədri ehtiyatda olan general-mayor Məmmədhüseyn Sarıyev, Müdafiə Sənayesi Nazirliyinin nazir müşaviri Azad Məmmədov, Azərbaycanın Respublikasi Müdafiə Nazirliyinin Hərb Tarixi Muzeyinin direktoru polkovnik Əzizağa Qənizadə, “Əfqanıstan Müharibəsi Veteranlar” birliyinin sədri Məhəmməd Vəliyev, "Qürur Şəhid Ailələri Xeyriyyə" birliyin sədri Naibə Behbudova, "20 Yanvar" birliyinin sədri Sultan Əzimzadə, "Xocalı Soyqırımını Tanıtma" birliyinin sədri Şamil Sabiroğlu, "Sosial Rifah və Tədqiqatları" birliyinin sədri Əkrəm Bəydəmirli, Milli Qəhramanları Tanıtma birliyini sədri Elşən Uluxanlı, Azərbaycanın Milli Qəhrəmanları Vahid Quliyev, İntiqam Atakişiyev Bəxtiyar Allahverdiyev, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə birliyinin sədri Emin Həsənli, “Respublika Əlil və şəhid ailələrinin vətənpərvərlər” birliyinin sədri, Çeçenistanın milli qəhrəmanı Arif Məhərrəmov, Qarabağ veteranı ehtiyatda olan polkovnik Xətai Baxışov çıxış edərək “Milli Qəhrəmanlarımızı tanıdaq və yaşadaq!” hərbi vətənpərvərlik mövzusunda təşkil olunan tədbirləri müsbət dəyəndərdirərək, Milli Qəhramanlarımızın adlarının verildiyi silah, hərbi texnika və başqa adlar Azərbaycan əsgərinin döyüş ruhunun yüksəlməsinə, vətən sevgisinin artmasına mühüm təsir göstərməklə düşmən üzərindəki labüd qələbəmizə öz töhfəsini verəcəyini bildirdilər.

Tədbir iştirakçıları, Azərbaycanın Milli Qəhrəmanlarına dəyər verərək onların adlarının əbədəşdirdikləri üçün, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Naziri Yavər Camalova, Azərbaycan Respublikasının Müdafiə Naziri genral polkovnik Zakir Həsənova öz təşəkkürlərini bildirdilər.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının, Müdafiə Sənayesi Nazirliyinin, Müdafiə Nazirliyinin, Milli Qəhramanların şəhid ailələri, müharibə, əmək və Silahlı Qüvvələr veteranları, Əfqanıstan, Qarabağ müharibəsinin veteranları, fəal gənclər, yuxarı sinif orta məktəb şagirdləri, QHT və KİV-in nümayəndələri iştirak edirdi.

# ЦВЕТОК, ОПАЛЕННЫЙ ВОЙНОЙ

Полк за последние месяцы начал уже отвыкать от обороны. Наступали с короткими передышками от самого Ленинграда. Шестого октября 1942 года пехота на броне танков ворвалась в Невель. Удар был столь неожиданным, что гитлеровцы при поспешном бегстве забыли снять на центральной улице своего регулировщика. Маншук, присев возле пулемета, с интересом наблюдала, как рослый немец с флажками в руках, ничего не подозревая, указывал направление нашим танкам. Темные удлиненные глаза девушки осветились лукавой улыбкой.

- Надо этого рыжего поставить к нам на довольствие, пусть указывает дорогу до самого Берлина.

На слова девушки солдаты откликнулись дружным смехом.

- Маметова, ты что здесь сидишь? - крикнул пожилой ездовой, неторопливо понукавший пару здоровенных трофейных коней, впряженных в бричку, нагруженную всяческим военным скарбом. - Приказано высту пать. Батальон уже на марше. Давай, подвезу.

Он помог поднять ей на подводу пулемет. Маншук примостилась рядом с ездовым. Одетые в железные ободья колеса загромыхали по булыжной мостовой.

- Все хочу тебя спросить, Маметова. Из каких ты краев родом? - произнес солдат, разглядывая смуглое, с чуть выпирающими скулами лицо девушки.

- Из Казахстана я, - ответила Маншук. - Родилась в ауле возле Алма-Аты.

- Значит, казашка?

- Ага.

- Слыхал я, что здорово наловчилась стрелять из пулемета.

- Маншук пожала плечами.

- А в бою, небось, страшно тебе бывает? - не унимался дотошный ездовой.

- Еще как, - Маншук, запрокинув голову, звонко расхохоталась. - Иной раз все поджилки трясутся.

- Неужто драпака задаешь?

Улыбку будто стерли с ее лица. Глаза сузились в щелочки. Так, наверное, глядят в прорезь прицела.

- Я скорее умру, чем перед врагом робость проявлю, -сказала вполголоса Маметова...



Она вспомнила этот разговор утром пятнадцатого октября. Гитлеровцы закрепились на высотах вблизи Невеля.

Они, видимо, не теряли надежды снова овладеть городом.

Полк, в котором служила старший сержант Маншук Маметова. перешел в оборону. Совсем это непросто: после успешных наступательных боев снова зарываться в землю, ставить минные поля.

Только с виду Маншук кажется тонкой, хрупкой. За два года войны ей пришлось своими маленькими, но очень сильными руками отрыть не один окоп полного профиля.

Утро застало ее в одиночном окопе, выдвинутом почти впритык к вражеским позициям. День выдался ясный, безветренный. От земли исходил запах прелых листьев и грибов. Но когда боднули землю первые снаряды, а потом хлопнули мины, у Маншук запершило в горле от едкой пороховой гари. Она вспомнила свой недавний разговор с ездовым. Разве ей сейчас не страшно? Конечно, страшно.

Но есть еще другое чувство, более сильное, заставляющее забыть о смертельной опасности.

Чувство долга!... Перед товарищами, которые верят, что она не подведет. Перед той старушкой из Невеля, что просила: "Ты уж доченька не дай Гитлеру назад в наш город вернуться". Перед всей страной - ее маленьким аулом и огромным Ленинградом, Аму-Дарьей и Волгой.

Опять ее всю осыпало земляным крошевом. Маншук отряхнула шинель, выглянула из окопа и почувствовала, как от лица отливает кровь. Прямо на ее окоп двигалась цепь вражеских солдат в надвинутых на самые брови касках, с прижатыми к животу автоматами. Они все на одно лицо, даже одного роста. Маншук хорошо замаскировала свою позицию, гитлеровцы ее еще не обнаружили. Она положила узкие ладони на ручки пулемета, стиснула их тонкими, сильными пальцами. Второй номер расчета, только вчера вечером сменивший убитого Фадеича, к которому Маншук привыкла за два года скитаний по передовым, ошалело поглядывал на вражескую цепь.

- Тебя как звать? - спросила Маметова.

- Александр, а по батюшке Иванович,

Он был не старше самой Маншук, которой недавно

исполнился двадцать один год.

- Так вот, Шура Иванович, сейчас мы фашистов причешем. Смотри, во время ленту меняй.

Пулеметная очередь, неожиданная и короткая, как удар кинжала, опрокинула фашистскую цепь. А тут на них обрушилась винтовочным и автоматным огнем наша пехота. Подбросили огоньку артиллеристы и минометчики.

- Первую атаку, кажется, отбили, - обнажая в улыбке белую, ровную полоску зубов, сказала Маншук.

- Мы и вторую, и третью отобьем, - заявил Александр.

От его недавней робости и следа не осталось. -

Молодец, Шура Иванович. Обязательно отобьем.

- Называй меня Сашкой.

Она поглядела на парня, одетого в явно не по росту сшитую шинель, на светлый мальчишеский вихор, который упрямо выбивался из-под шапки-ушанки. Она в эту минуту и не подумала, что с Александром они ровесники. Себя Маншук считала немного старше. Ведь она пережила

два года войны, десятки малых и больших боев. И после каждого становилась мудрее и жестче. Куда исчезла девчонка в ярком, цветастом платье, не смевшая поднять глаза на институтских парней. В аудитории она, бывало, садилась в сторонку и старалась казаться как можно неприметнее. У студентки первого курса медицинского института хватало забот: лекции, занятия в лаборатории и еще работа в анатомичке (с какой дрожью переступала она тот страшный порог).

Мечтала стать врачом, а после года учебы надела солдатскую гимнастерку. Ее прогоняли из военкомата, а она все-таки своего добилась. И послали ее не в медсанбат, а в пулеметную роту. Все-таки настояла на своем упрямая девчонка...

Немцы снова пошли в атаку. У Маншук острее выступили скулы, пальцы, сжимавшие ручки пулемета, побелели в суставах. Видела, как падают срезанные точными очередями фашисты, и в глазах девушки загорались огоньки ненависти к врагам. Изредка она бросала второму номеру:

- Ленту!

- Есть ленту, - в тон ей отвечал парень. Он действовал почти безошибочно. Что ни говори, а это был его первый бой...

Продолжение в следующем номере...

Заслуженный работник культуры Азербайджанской Республики, Лауреат премии «Золотое перо»
Гритченко Александр Александрович

AZƏRBAYCAN VETERANI

# Qaliblərin Balı

Cari il dekabr ayının 3-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində yerləşən Böyük Vətən Müharibəsi Mərkəzi muzeyində M.Liepa və Birləşmiş metallurgiya kompaniyasının təşkilatçılığı və MDB ölkələrinin İkinci Dünya Müharibəsi veteranlarının iştirakı ilə "Qaliblərin Balı" adlanan geniş tədbir keçirilmişdir. Moskva uğrunda döyüşlərin 75 illik yubileyinə həsr olunmuş Qaliblərin sayca 11-ci "Balı"nda Azərbaycanı İkinci



Dünya Müharibəsi veteranları Bəkir Məmmədov, Seyfulla Baxışov, Leninqrad mühasirəsi (blokada) iştirakçıları İrina Qədimova, Yekaterina Sadıxova, Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev, baş mütəxəssisləri Nəbi Hacıyev və Azər İsmayılov təmsil etmişlər.

Qaliblərin 11-ci Balı İkinci Dünya Müharibəsinin gedişi və keçmiş SSRİ-nin bu müharibədə iştirakına həsr olunmuş geniş kompozisiyanın nümayişi ilə başlanmışdır. Alman faşizmi üzərində qələbəyə aparan yolun bütün mühüm mərhələlərinin, eləcə də arxa cəbhənin həmin qələbənin əldə olunmasında iştirakının əksini tapdığı kompozisiya müharibənin od-alovundan çıxmış, bu gün yaşı 100-ü haqlamaqda olan insanlar tərəfindən böyük maraqla qarşılanmışdır. Sonra Rusiya TV-lərinin canlı yayımladığı bayram tədbiri - "Qaliblərin Balı" başlanmışdır. Müharibənin canlı şahidləri, RF-nın rəsmi dövlət və ictimai təşkilatlarının nümayəndələrinin çıxışlarının yer aldığı, rəsmi təbriklərin oxunduğu tədbirdə Rusiya və digər ölkələrin tanınmış incəsənət xadimlərinin ifasında vətənpərvərlik, o cümlədən, torpaq, ana, müharibə, qələbə haqqında mahnılar, şerlər səsləndirilmiş, rəqs nömrələri nümayiş etdirilmişdir.

Azərbaycan nümayəndə heyətinin üzvləri, veteranlar Bəkir Məmmədov və İrina Qədimova Rusiya KİV-lərinə müsahibə vermişlər. Həmin müsahibələrdə ölkəmizin İkinci Dünya Müharibəsində yaxından iştirakı, azərbaycanlıların qəhrəmancasına vuruşaraq ən yüksək fəxri adlara, orden-medallara layiq görülmələrindən, qanlı döyüşlərdə 300 mindən çox soydaşımızın həyatlarını itirməsindən, Azərbaycan xalqının bəşəriyyətin dəhşətli bəladan xilası naminə arxa cəbhədəki fədakar əməyindən bəhs etmişdir. Azərbaycan nümayəndə heyətinin üzvləri digər ölkələrin nümayəndələri ilə tədbir çərçivəsində, eləcə də söhbətlərində Azərbaycanda 9 may Qələbə gününün hər il böyük təntənə ilə qeyd edilməsi, veteranlara dövlət tərəfindən xüsusi qayğı göstərilməsi, Azərbaycan Veteranlar Təşkilatının qarşılıqlı əməkdaşlıq əlaqələrinə mühüm əhəmiyyət verdiyi barədə danışmışlar.





Respublika Veteranlar Təşkilatının Rəyasət Heyəti adından Azərbaycanla, xüsusilə veteran təşkilatları arasında əlaqələrin inkişafında yaxından iştiraklarına görə, Rusiya-Azərbaycan Parlamentlərarası dostluq qrupu press-mərkəzinin rəhbəri Krasovskaya Natalya Rudolfovnaya və RF Dövlət Dumasının deputatı D.İ.Cavelyevin köməkçisi, Parlamentlərarası dostluq qrupunun mədəni və elm-təhsil proqramları rəhbəri Qolubev Sergey Leonidoviçə RVT-nin yubiley medalları təqdim edilmişdir.

## Allah rəhmət eləsin

Suraxanı rayon Veteranlar Təşkilatının sədri Eldar Rüstəmov və təşkilatın kollektivi II-ci dünya müharibəsi iştirakçısı

**Əliyev Eynal Hacı oğlunun**

vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Xətai rayon Veteranlar Təşkilatının sədri Nəcibə Məhərrəmova və təşkilatın kollektivi əmək veteranı

**Qənbərov Tofiq Rüstəm oğlunun**

vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının kollektivi Təşkilatın əməkdaşı Səfərov Vilayət Mustafa oğlunun qardaşı

**Səfərov Vidadi Mustafa oğlunun**

vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazılışı başlamışdır!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları:**
**(012) 440- 21-08**
**(012) 497- 63-58 (111)**

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
*Təsisçi: Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
*VÖEN: 1701285981*
*verilmə tarixi - 23.11.2011*

*Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
*Əlaqə telefonu: 012 440-21-08*
*e-mail: az.veteran@mail.ru*
*Dövlət qeydiyyat nömrəsi - 3486*
*Dövlət qeydiyyat tarixi - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 50 qəpik*
*Tiraj: 1250*